**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**

**KOLLEGİYA QƏRARI**

**28 sentyabr 2012-ci il** **№ 20-N**

# "Notariat *ofisləri* və notariat hərəkətlərinin aparılması barədə məlumatın əldə edilməsi üzrə inzibati reqlament"in təsdiq edilməsi haqqında[1]

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyul tarixli 676 nömrəli Fərmanının icrası məqsədi ilə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 19-cu bəndini rəhbər tutaraq Kollegiya

**QƏRARA ALIR:**

1. "Notariat *ofisləri* və notariat hərəkətlərinin aparılması barədə məlumatının əldə edilməsi üzrə inzibati reqlament" təsdiq edilsin (əlavə olunur).
2. Bu Qərarın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi təmin olunsun (A.Əliyev).
3. Qərar aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

**Azərbaycan Respublikasının**
**ədliyyə naziri**
**I dərəcəli dövlət ədliyyə**
**müşaviri** **Fikrət Məmmədov**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 2012-ci il 28 sentyabr tarixli 20-N nömrəli Qərarı ilə təsdiq edilmişdir

## Notariat ofisləri və notariat hərəkətlərinin aparılması barədə məlumatın əldə edilməsi üzrə inzibati reqlament

### 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Notariat *ofisləri* və notariat hərəkətlərinin aparılması barədə məlumat əldə edilməsi[2]

**1.2. Elektron xidmətin məzmunu:** Respublika ərazisində fəaliyyət göstərən notariat *ofislərinin* dislokasiyası, iş rejimi, telefon nömrələri, eləcə də notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün ödənilməli rüsum və haqqın məbləğləri, tələb olunan sənədlər və onları verən orqanlar barədə ətraflı məlumatların istifadəçilər tərəfindən əldə olunmasından ibarətdir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**

- "Notariat haqqında" 26 noyabr 1999-cu il tarixli 762-IQ nömrəli Azərbaycan Respublikasının Qanununun 8-ci və 9-cu maddələri;

- **"**İnformasiya əldə etmək haqqında**"** 30 sentyabr 2005-ci il tarixli 1024-IIQ nömrəli Azərbaycan Respublikasının Qanununun 6-cı və 10-cu maddələri;

- Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.17-ci bəndi;

- "Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanı, Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarına uyğun olaraq hazırlanmışdır. [3]

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**1.5. Elektron xidmətin digər icraçıları:** Xüsusi qaydada fəaliyyət göstərən notariuslar

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Elektron xidmət tam avtomatlaşdırılmışdır.

**1.7. Elektron xidmətin icra müddəti:** Xidmətin icra müddəti istifadəçinin tələb olunan məlumatları daxil etməsindən və bunun informasiya sistemində emalı müddətindən asılıdır.

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** Fiziki və hüquqi şəxslər respublika ərazisində fəaliyyət göstərən dövlət notariat *ofisləri* və xüsusi notariuslar, onların ünvanları, telefon nömrələri, iş rejimi, xəritədə yerləşmə mövqeyi, eləcə də notariat hərəkətlərinin rəsmiləşdirilməsi üçün ödənilməli rüsum və haqqın məbləğləri, tələb olunan sənədlər və onları verən orqanlar barədə ətraflı məlumatlar əldə edə bilərlər.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** informativ

**2.2. Elektron xidmət üzrə ödəniş:** ödənişsiz

**2.3. Elektron xidmətin istifadəçiləri:** fiziki və hüquqi şəxslər.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** : http://www.e-gov.az ; http://exidmet.justice.gov.az

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

İnternet ünvanı: http://www.e-gov.az ; http://www.justice.gov.az

Elektron poçt: contact@justice.gov.az ; notvva@justice.gov.az

Telefon: (+99412) 430 09 77 / (+99412) 404 42 81

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** Elektron xidmətdən istifadə etmək üçün heç bir sənədin təqdim edilməsi tələb olunmur.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1.** İnformativ növlü elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.

**3.2. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət**: Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi həyata keçirir.

**3.2.1. Nəzarət forması**: Daxil olan müraciətlərin avtomatlaşdırılmış rejimdə təşkil olunmuş mütəmadi monitorinqi.

**3.2.2. Nəzarət qaydası:** Monitorinq nəticəsində müraciətlər barədə toplanılan məlumatlar xüsusi məntiqi sxemlər üzərində işlənilmiş proqram təminatı vasitəsilə yoxlanılır, müraciətlərin tamlığı və cavabların verilmə sürətinə dair eləcə də icra zamanı baş verən nöqsanlar barədə hesabatlar tərtib olunur. Həmin hesabatlar sistemin fəaliyyətinə məsul olan şəxslər tərəfindən daim izlənilir.

**3.3. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** Elektron xidmətlərin göstərilməsinə görə Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi məsuliyyət daşıyır.

**3.3.1. İstifadəçinin şikayət etmək hüququ haqqında məlumat:** İstifadəçi elektron xidmətlə bağlı onu razı salmayan istənilən məsələ barədə yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) inzibati qaydada və məhkəməyə şikayət edə bilər.

**3.3.2. Şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya**: Şikayət kağız üzərində və elektron qaydada tərtib oluna bilər. Kağız üzərində şikayət Ədliyyə Nazirliyinin poçt ünvanına, elektron şikayət isə bu reqlamentin 2.5-ci bəndində göstərilən poçt ünvanına göndərilməlidir. Şikayətdə vətəndaşın adı, atasının adı, soyadı, ünvanı, poçt və ya elektron poçt ünvanı, yaxud işlədiyi yer göstərilməlidir.

**3.3.3. Şikayətin baxılma müddəti:** Şikayətə 15 gün ərzində baxılmalıdır. Əlavə öyrənilməsi və yoxlanılması tələb edilən şikayətlərə isə 30 gün müddətində baxılır.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı
2. 13 fevral 2019-cu il tarixli **5-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı
3. 

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 13 fevral 2019-cu il tarixli **5-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə adında və 1-ci hissəsində "**kontorları**" sözü "**ofisləri**" sözü ilə əvəz edilmişdir.

[2] 13 fevral 2019-cu il tarixli **5-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı ilə "Notariat kontorları və notariat hərəkətlərinin aparılması barədə məlumatının əldə edilməsi üzrə inzibati reqlament"inadında, 1.1, 1.2 və 1.8-ci bəndlərində ismin müvafiq hallarında "**kontorları**" sözü ismin müvafiq hallarında "**ofisləri**" sözü ilə əvəz edilmişdir.

[3] 31 oktyabr 2017-ci il tarixli **20-N** nömrəli Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kollegiya qərarı ilə həmin Qərarla təsdiq edilmiş "Notariat kontorları və notariat hərəkətlərinin aparılması barədə məlumatın əldə edilməsi üzrə inzibati reqlament"in 1.3-cü bəndinin beşinci abzasında "**Dövlət orqanlarının**" sözlərindən sonra "**və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin**" sözləri əlavə edilmişdir.